Ədalət .- 2025.- 5 dekabr (№46).-S.10.

**Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi və Şəkinin Turan qəsəbəsində fəaliyyət göstərən uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Molla Cümənin anadan olmasının 171 illiyi qeyd edilmişdir. Tədbirin aparıcısı Nakam adına Mərkəzi kitabxananın bölmə müdiri Dilbər xanım Yaqubova ilk sözü Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin direktoru Ülkər Mahmudovaya verdi. O, Bakıdan və respublikamızın müxtəlif rayonlarından gələn Molla Cümə sevərləri salamladı. Sonra söz verildi Azərbaycan Yazıçılar Birliyi Şəki Bölməsinin rəhbəri, tanınmış şair, el ağsaqqalı Vaqif Aslana.**

Vaqif Aslan Molla Cümənin yaradıcılığı haqqında danışanda qeyd etdi ki, Azərbaycanda klassik aşıq poeziyasının görkləmli nümayəndələrindən biri də Molla Cümədir. Onun həyatı və yaradıcılığı, poetik aləmi olduqca maraqlıdır. Bu onu çox sənət adamlarından

# MOLLA CÜMƏ – 171

fərqləndirir. Molla Cümə Azərbaycan xalqına zəngin irs qoyub getmişdir. Təəssüf ki, bu irs çox gec öyrənilməyə başlanmışdır. Molla Cümənin yaradıcılığını əks etdirən mindən çox özünün əli ilə yazılan nümunələr vardır. Amma yazılmayan, məclislərdə bədahətən deyilən, bir müddət sonra yaddaşlarda yaşayan, bir çox hallarda deformasiyaya uğrayan şeirləri toplanmışdır. Bütün bu faktlar onu göstərir ki, Molla Cümə çox məhsuldar bir sənətkar olmuşdur. Onun yaradıcılığı o qədər zəngindir ki, bu çoxlarını təəccübləndirir. Belə ki, Molla Cümə aşıq poeziyasının bütün janrlarında yazıb yaratmış və ustadnamələr qoyub getmişdir.

Sonra söz verildi Molla Cümənin həmkəndlisi, tanınmış hüquqşünas, böyük ziyalı, Molla Cümə irsinin nəşrinə dəfələrlə hamilik edən Abdulla Yusifliyə. Abdulla müəllim qeyd etdi ki, Molla Cümənin yaradıcılığında əsas yeri nakam məhəbbət lirikası tutur. Molla Cümənin şeirlərində insanın mənəvi gözəlliyi böyük səmimiyyətlə vəsf edilib. Molla cümənin ilk və son sevgilisi "İsmi pünhan"dır və onun yaradıcılığında bu ad dəyişilməz, əvəz olunmaz xətlə davam etmişdir. Aşıq şeirlərində yüzlərlə gözəlin adını müxtəlif formada, bəzən əbcəd hesabı ilə, bəzən də gözəlin adında olan hərfləri şeirin vəzninə uyğunlaşdırıb söyləmişdir. Bir neçə şeirində isə "İsmi pünhan"ın adında 4 hərfin olduğunu aşkar etmişdir. Lakin Molla Cümə öz yaradıcılıq illərində kamilləşdikcə "İsmi pünhan" da onun aləmində ülviləşib, poetikləşib və ümumiləşərək bütün əsərlərində əks olunmuşdur. Molla Cümənin öz sözü ilə desək, "İsmi pünhan üstündədir xeyri-şərim".



Molla Cümənin dünyagörüşünü öyrənmək üçün onun şeirlərini oxumaq, təhlil etmək gərəkdir. Molla Cümə öz yaradıcılığı ilə çox sevdiyi xalqının zövqünü oxşamış, ona ilahi sevgi yolları göstərmişdir. O, həm də insanlara sevinc bəxş etməklə, dünyanı dərk etmək üçün sevgi ilə yaşamaq nümunəsi göstərmişdir. Bu sevgi hələ çox əsrlər də insanlara mayak olacaqdır.

Söz verildi Molla Cümənin pərəstişkarı, onun külliyyatının yarıdan çoxunu əzbər bilən Hacı Ömərə. O da öz çıxışında Molla Cümə yaradıcılığının müxtəlif formaları haqqında danışdı.

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi Həmkarlar İttifaqı Rayon Komitəsinin sədri Nəzakət Əliyeva çıxış etdi.

Tədbirdə Turan qəsəbə uşaq musiqi məktəbinin aşıqlar ansanblı, "Koroğlu" nağara ansanblı və Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin musiqi kollektivi Molla Cümənin sözlərinə yazılmış mahnılar ifa etdilər.

**Tədbirin sonunda Molla Cümənin ailəsi adından nəticələri Nahib və Elman Əzizovlar çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildirdilər.**

**Çingiz NAĞIYEV,**
**Şəki**